# 20 Yanvar şəhidləri və Vətən müharibəsi şəhidlərinin məzarları ziyarət edilmişdir



Yanvarın 20-də Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, digər dövlət qurumlarının rəhbərləri və bir qrup rayon ictimaiyyətinin nümayəndələri şəhidlər xiyabanını ziyarət etmiş, torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş igid qəbələlilərin məzarları üzərinə gül dəstələri düzmüşlər. Sonra II Qarabağ müharibəsi dövründə canlarından keçmiş şəhidlərin məzarları ziyarət edilmiş və böyük ehtiramla yad edilərək üzərilərinə tər gül dəstələri qoyulmuşdur. Rayon rəhbərliyi şəhid ailələrinin üzvləri ilə görüşərək onları dinləmiş, narahat edən problemləri öyrənmiş, həlli istiqamətində aidiyyatı üzrə müvafiq tapşırıqlar vermiş və icrasını nəzarətə götürmüşdür. Şəhid ailələri onlara göstərilən yüksək diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və birinci vitse Prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.



# Vətən müharibəsində yaralanmış qazilərimiz ziyarət edilib



Qəbələ Rayon İcra Hakimiyyətinin əməkdaşları tərəfindən Vətən müharibəsi zamanı yaralanan qazilər- Bum qəsəbə sakini Alyarov Tahir Mikayıl oğlu, Mirzəbəyli kənd sakini Seyidov Nurlan Tərlan oğlu və Yemişanlı kənd sakini Yaradov Elməddin Mürvət oğlu evlərində ziyarət edilmişlər. Görüşdə, sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə tarixi qələbə qazanması, zəfərlə sona çatan Vətən müharibəsində ölkəmizin igid oğullarının qəhrəmanlıqlarından söhbət açılmışdır. Torpaqlarımızın işğaldan azad edilməsi naminə döyüşmüş və yaralanmış qazilərlə görüş zamanı onları narahat edən problemlər öyrənilmiş və həlli istiqamətində tədbirlər nəzarətə götürülmüşdür. RİH tərəfindən onlara ərzaq sovqatı verilmiş, qazilər və ailə üzvləri Vətən müharibəsi iştirakçılarına göstərilən dövlət qayğısına görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirmişlər.

# Qəbələ rayonunda karantin rejimi ilə bağlı monitorinqlər davam etdirilir



Rayon icra hakimiyyətində yaradılmış mobil qruplar tərəfindən mütəmadi olaraq həyata keçirilən reydlər bu gün də davam etdirilmişdir. Qrup üzvləri qapalı və açıq məkanlarda əhali ilə görüşmüş, karantin rejiminin qaydalarına əməl edilməsinin zəruriliyini izah etmişlər. Gün ərzində 147 ticarət obyektinə, 132 digər obyektə və 25 yanvar 2021-ci il tarixdən Nazirlər Kabineti tərəfindən fəaliyyəti bərpa edilən 12 bərbərxanaya baxış keçirilmişdir.

# *Millət millət olur xeyir şəriylə, İnsan insan olur öz hünəriylə...*

1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının həyatında dönüş nöqtəsi oldu. O faciəli günlərdən 31 il keçir. Xalqın birliyi və milli ləyaqət hissi top-tüfəngə qalib gəldi və bu, 20 yanvarı səciyyələndirən ən mühüm məqamlardan biridir.

İnsanların gülləyə tutulduğu, tankların altında əzildiyi həmin qış gecəsində əslində azadlıq günəşi doğurdu. Bu, dövlət müstəqilliyi bərpa edilərkən dərk edildi. Bu şəhidlər tarixə azadlıq müjdəsi gətirən qaranquşlar kimi düşdü.

20 yanvar faciəsi bir günün ərzində baş verən hadisə deyildi. Bu, Azərbaycan xalqının haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini hiddətlə ucaldaraq imperiya buxovlarından qurtarmağa can atması idi. Bundan təşvişə düşən SSRİ rəhbərliyi, əslində, sovet totalitar rejiminin süqutunu daha da sürətləndirən müdhiş cinayətə əl atdı. Bakıya, respublikanın bir sıra digər şəhərlərinə qanunsuz hərbi müdaxilə nəticəsində dinc əhaliyə divan tutuldu, insanlar qətlə yetirildi və yaralandı.

**Statistika**

Həmin gecə və sonrakı bir neçə gündə Bakıda, Neftçala və Lənkəranda 147 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 800-dən çox insan həbs olundu. Şəhidlərin əksəriyyəti yaxın məsafədən güllələnmişdilər. Y. Meyeroviçə 21, D. Xanməmmədova 10, R. Rüstəmova 23 güllə vurulmuşdu. Belə vəhşiliklərlə qətlə yetirilənlərin sayını artırmaq da olar. Ancaq bu vəhşiliklər xalqın əzmini, qətiyyətini qıra bilmədi...

***Torpağın bağrına***
***cəsədləriylə,***
***Azadlıq toxumu səpdi***
***şəhidlər!***

Bu gün II Vətən Müharibəsində qazanılan Qələbə, zəfər onların ruhuna əyandır və narahat ruhları şaddır.

Şəhidlər Xiyabanı özündə həm ümummilli kədər və iztirabı, həm də xalqımızın mübarizliyini, yenilməz iradəsini əks etdirən məkandır.

**Füzuli İSRAYILOV,**
**Qəbələ şəhəri.**

# Xarı bülbül

*(Mifologiya)*



Şuşa dağlarında xarıbülbül adlanan qeyri-adi bir gül yetişir. Gülə bu ad bülbülə bənzədiyinə görə verilib. "Xar" sözü isə tikan mənasını verir, yəni "tikanlı bülbül". Xarıbülbülün digər adı Qafqaz Qaş Səhləbidir.

Bir zamanlar Xarıbülbül yalnız Qarabağda, xüsusilə də Şuşada bitirdi. Ancaq necə ki, qarabağlılar öz yurdlarından ayrı düşdü bir zamanlar Xarı bülbül də öz nisgili ilə digər bölgələrə köç etdi., hətta Qəbələmizdə də məskən saldı. Lakin tezliklə Qarabağın öz doğma sakinləri ilə birlikdə Xarı bülbül də əsl aid olduğu yerə köçəcək, onun da nisgili sona çatacaq. Heyrətamiz və kövrək olan xarıbülbül gülü ilə bağlı çoxlu əfsanələr və rəvayətlər var. Deyilənə görə Fətəli şah Şuşa üçün qəribsəyən arvadı, Qarabağ xanı İbrahimxəlil xanın qızı Ağabəyim ağa üçün bir bağ saldırır. Bu bağda Qarabağda, Şuşada bitən bütün ağacları, gülləri əkirlər. Hamısı bitir, bircə xarıbülbüldən başqa.

***Vətən bağı al-əlvandır,***
***Yox üstündə Xarıbülbül.***
***Ömür sürməli dövrandır,***
***Səsin gəlsin barı bülbül.***

Bu mahnı da həmin vaxt yaranıb. Xarıbülbül haqqında başqa rəvayətlər də var. Bir gün bülbül öz sevgilisi gülün görüşünə getmək istədiyi vaxt bərk külək əsir. Nəhəng çinarlar, uca sərvlər, salxım söyüdlər onun qarşısında dönə-dönə əyilirlər. Yalnız zərif, gözəl, ətirli gül küləyə ram olmur. Onun dimdik durduğunu görən külək heyrətə gəlir:

- Ay zərif, ay zəif gül, sən hansı cəsarətlə mənə baş əymirsən? Sən bu gücü haradan alırsan?

Gül cavab verir:

- Məhəbbətdən! Məhəbbətin qarlı olur, heç kəsə baş əymir. Mən bülbülü sevirəm. Mənə gücqüvvət verən onun saf məhəbbətidir.

- Baxarıq! Sən məhəbbətini sına, mən də gücümü…

Külək bunu deyib kükrəyir. Külək qələbəsindən sevinərək daha bərkdən uğuldayır. Bülbül özünü gülün harayına çatdırır. O, sinəsini yavaş-yavaş əyilən gülün köksünə söykəyib, əyilən qamətini düzəldir. Bu vaxt gülün tikanı onun sinəsinə sancılır. Bülbül məhv olur, amma gülü əyilməyə qoymur. Gül həmin vaxtdan bülbül görkəmində çiçəklər açır. Adı olur xarıbülbül.

Dünyanın heç bir yerində rast gəlinməyən xarıbülbül təbiətin ən böyük möcüzələrindən biridir. Azərbaycanın Qarabağ bölgəsində yaşayan əhali bu gülə hər zaman xüsusi münasibət bəsləyib. Xarıbülbül Şuşanın və ümumilikdə Qarabağın rəmzinə çevrilib. Xarıbülbülün təsvirinə Azərbaycan xalçalarında rast gəlmək mümkündür.

Xarıbülbüldən xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsində də geniş istifadə edilir. İndi Qarabağımız kimi xarıbülbülümüz də əsirlikdən azad olundu. Yaz gələcək və Xarı bülbül yaşıl otların arasından sevdiklərinə boylanacaq.

**«Qəbələ».**